# Şuşanın azad edilməsi Böyük Qələbəmizi tezləşdirdi



**Dövlət Bayrağı Günü ərəfəsində şanlı ordumuz tərəfindən Azərbaycanın tarixi şəhəri və mədəniyyət paytaxtı, Qarabağın tacı olan qədim Şuşanın işğaldan azad edilməsi münasibətilə Azərbaycan Prezidenti, qalib Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xalqımıza müraciət edərək, Böyük Qələbəyə aparan zəfər münasibəti ilə bütün xalqımıza təbrik etdi. Prezidentimizin bu tarixi qələbənin qazanılmasında nümayiş etdirdiyi qətiyyətli mövqe hər birimizə böyük sevinc və qürur hissi yaşadıb, xalqımızın bitib-tükənməyən sevincinə və fərəhinə səbəb olub. Bu tarixi müraciətin "Şəhidlər xiyabaanı"ndan edilməsi həm də qəhrəman hərbçilərimizdə böyük ruh yüksəkliyi yaratdı və onların qələbə əzmini daha da artırdı.**

İyirmi səkkiz il altı aydan sonra Şuşanın azad edilməsi ilə bağlı bu xoş müjdəli xəbər bütün yurdsevər və qədirbilən xalqımız tərəfindən əsl bayram kimi qeyd edilir. Azərbaycan Ordusunun davamlı zəfər yürüşləri xalqımızın Böyük Qələbəyə gedən yolunu daha da yaxınlaşdırdı. Dövlətimizin başçısının rəhbərliyi ilə müzəffər ordumuz işğal altında olan torpaqlarımızı bir-birinin ardınca böyük sevgi və coşqu ilə azad etdi.

Üçrəngli bayrağımızın Şuşada, onun möhtəşəm tarixi qalasında dalğalanması Ali Baş Komandanımız cənab İlham Əliyevin yüksək sərkərdəlik qabiliyyətinin, ordumuzun, xalqımızın gücünün, birliyinin və vəhdətinin çox parlaq bir nümunəsidir. Heç şübhəsiz, bu qüdrətli və şanlı qələbə Azərbaycan xalqının Vətən müharibəsinin, azadlıq mübarizəsinin taleyinin həllində önəmli rol oynadı. Bu tarixi Qələbənin böyük əhəmiyyəti və əvəzolunmaz yeri qədirbilən xalqımız tərəfindən həmişə yüksək qiymətləndiriləcək, tarixdə əbədi qalacaq, heç vaxt unudulmayacaqdır.

Tarixi zəfərlərini günü-gündən genişləndirən müzəffər Ordumuzun bu qiymətli hərbi-siyasi qələbəsinin əhəmiyyəti heç bir şeylə müqayisə edilə bilməz. Şuşanın düşməndən təmizlənməsi olduqca tez bir zamanda Laçının, Kəlbəcərin, Ağdamın, o cümlədən, külli Qarabağın və onun ətrafında olan yaşayış məntəqələrimizin azad edilməsini tezləşdirdi. Biz bundan sonra yalançı, riyakar, mənfur Ermənistanın, onun qaniçən, ikiüzlü, utanmaz baş naziri Nikol Paşinyanın və erməni xalqının daha böyük itkilər və daha acı məğlubiyyətlərlə üz-üzə qaldığının şahidi olduq. Doğma və əzəli torpaqlarımızın azad edilməsi isə bütün xalqımıza böyük sevinc hissi bəxş etməklə yanaşı otüz illik ümid, arzu və istəyini reallığa çevirdi. Nəticədə, Azərbaycan xalqı öz ərazi bütövlüyünü bərpa etməklə siyasi-iqtisadi qüdrətini təsəvvüredilməz dərəcədə artırmağa və yüksəltməyə nail oldu. Müqəddəs dədə-baba torpaqlarımızın tam bərpasından sonra Dağlıq Qarabağ və onun ətrafındakı rayonlar nəinki qüdrətli və sevimli ölkəmizdə, həm də Cənubi Qafqazda böyük mədəniyyət mərkəzi olmasını tez bir zamanda sübut edəcək. Eyni zamanda, zəngin və tükənməz təbii ehtiyatları ilə beynəlxalq ticarət və turizm mərkəzinə cevriıəcəkdir.

Şuşanın azad edilməsi Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılacaq. Çünki Şuşa həm birinci, həm də ikinci Qarabağ müharibəsi hesab edilən Vətən müharibəsi dövründə savaşın taleyini həlledən əsas nöqtə hesab edilirdi.

Birinci Qarabağ müharibəsinin ilk komandirlərindən biri kimi öz adımdan və çoxsaylı səngər dostlarım adından bu böyük və tarixi Qələbə günü münasibəti ilə dövlətimizin qalib sərkərdəsi və Prezidenti cənab İlham Əliyevi, müzəffər və şanlı ordumuzu, bütün şuşalıları,qarabağlıları və Azərbaycan xalqını təbrik edirəm.

Böyük Qələbəmiz, o cümlədən, Şuşanın azad edilməsi Azərbaycan Ordusunun gücünün, xalqımızın birliyinin, Ali Baş Komandanımızın sərkərdəlik qabiliyyətinin təzahürüdür. Məhz xalqımızın ordumuza, Prezidentimizə, dövlətimizə göstərilən dəstəyinin nəticəsidir ki, məkirli düşmənə qalib gələ bildik.

Atalar əbəs yerə deməyib ki, nə atarsan aşına, o da çıxar qaşığına. Çox gec olsa da ədalət zəfər çaldı, Azərbaycan xalqının haqlı nigarançılığına və narahatlığına son qoyuldu. Bu tarixi qələbə həm də Ermənistanın və onun başıpozuq ordusunun məğlubedilməzliyi barədə yaradılan saxta mifə son qoydu.

Bir daha tarixi Zəfərimiz və şanlı Qələbəmiz mübarək olsun!

Gözün aydın olsun, Azərbaycan!

Yaşasın qalib Azərbaycan Prezidenti və müzəffər Azərbaycan Ordusu!

Yaşasın Azərbaycan! Allah şəhidlərimizə rəhmət etsin, yaralı əsgər və zabitlərimizə tezliklə şəfa versin. Zəfər Azərbaycan əsgərinindir.

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Qələbə bizimlədir!

***Bayram MƏMMƏDOV,***
***ehtiyatda olan polkovnik-leytenant,***
***Milli Məclisin deputat köməkçisi,***
***Əməkdar müəllim, AJB-nin üzvü***

Xalq qəzeti 2020.- 12 noyabr.- S.8.